**AYTƏKİN ƏLİZADƏ**
**Bakı Avrasiya Universiteti**
**Bakı, Nərimanov rayon Həsən Əliyev 135 A**
**aytekin.elizade23@mail.ru**

# ANTİUTOPİK NƏSRDƏ MODERNİST VƏ POSTMODERNİST DÜŞÜNCƏNİN BƏDİİ HƏLLİ (CORC ORUELLİN "1984" VƏ HARUKİ MURAKAMİNİN "1Q84" ROMANLARI ƏSASINDA)

Xülasə:

Corc Oruell yaradıcılığı özündən sonrakı ədəbiyyata təsirsiz ötüşməmişdir. Qərb ədəbiyyatından başqa hətta uzaq şərq ədəbiyyatına olan təsirini də görmək mümkündür. Bu təsiri Haruki Murakami yaradıcılığında açıq şəkildə görə bilirik. Yapon ədəbiyyatının yaşayan klassiki sayılan H.Murakaminin "1Q84" romanında C.Oruellin "1984"romanı ilə olan qarşılıqlı təsirlənmənin şahidi oluruq. H.Murakami sözü gedən romanında bir sıra cərəyanların izlərini görmək mümkündür. Roman triologiya şəklində yazılmışdır. C.Oruelldən fərqli olaraq Murakami realist təsvirlərlə yanaşı, nəsrdə fantastikadan da məharətlə istifadə edir. Nəzərə alsaq ki, Oruell modernist dünyanın gətirdiyi problemləri düşünüb, onları realist şəkildə təsvir edirdi. Murakami isə postmodern düşüncə ilə yanaşmışdır və istər Oruellin adını çəkdiyimiz romanına, istərsə də antiutopik dünya modelinə yeni nəfəs vermişdir.

"1984"-ün sonunda Oruell mövcud rejimin qələbəsini, Uinstonun fiziki və mənəvi məğlubiyyətini göstərirdi. Murakami isə 1Q84 ilində hadisələrin cərəyanetmə istiqamətini dəyişərək, qəhrəmanlarını gerçəklikdən uzaq dünyadan real və həqiqi dünyaya gətirməyi bacarır. Antiutopik dünyanı utopikləşdirməyə səy göstərir. Təqdim olunan məqalədə, eyni zamanda Murakamin utopik və antiutopik dünya modelinə münasibəti haqqında da məlumat verilmişdir. Bununla yanaşı, hər iki yazarın mövzuya toxunduğu ictimai quruluşlarda olan fərqlər də qeyd olunmuşdur.

**Açar sözlər**: Haruki Murakami, Corc Oruell, antiutopiya, modernizm, postmodernizm.

Corc Oruell yaradıcılığı özündən sonrakı ədəbiyyata təsirsiz ötüşməmişdir. Qərb ədəbiyyatından başqa hətta uzaq şərq ədəbiyyatına olan təsirini də görmək mümkündür. Bu təsiri Haruki Murakami yaradıcılığında açıq şəkildə görmək olur.

Yapon postmodern ədəbiyyatının nümayəndəsi, yaşayan klassiki sayılan Haruki Murakami dünya ədəbiyyatında öz dəsti-xətti ilə seçilən yazarlardandır. Murakami yaradıcılığının formalaşması dövrü uzun müddət mühafizəkar ədəbiyyat kimi tanınan, heç bir təsirə məruz qalmayan yapon ədəbiyyatına qərb və Amerikadan gələn təsirlərin gücləndiyi bir şəraitdə baş vermişdir. Məhz buna görə Murakaminin yaradıcılığında qərb və Amerika ədəbiyyatından təsirlənmələr güclü şəkildə özünü biruzə verir.

Bədirxan Əhmədlinin yazıçının yaradıcılığı haqqında dediyi aşağıdakı fikirlər Haruki Murakami yaradıcılığının incə nüanslarını anlağama kömək edir: "Əsərlərində hər hansı bir hadisənin təsviri dərin fəlsəfi çalarlarla dərk olunur. Bu cəhətdən yazıçının yaradıcılığında fəlsəfi-psixoloji çalarlar üstünlük təşkil edir. Qəhrəmanları da, sanki filosofdurlar; onlar daim axtarışda, bir məqsədə doğru irəliyə baxmaqdadır, cəmiyyət hadisələrini təsvir etməyi və ondan müəyyən nəticələr çıxarmağı bacarırlar. Yazıçının daim izlədiyi sürrealist ideya çox zaman qəhrəmanlarının xarakterini və əsərin süjet xəttini də müəyyən edir. Burada dərk olunması qeyri-mümkün olan hadisə və qəhrəmanlar, insanın real dünya ilə ilişgiləri sirli və dumanlı şəkildə verilir. Yazıçının romanlarının janrını, formasını müyyən etmək də bir qədər çətin olur.

Hər hansı bir əsərində realizm, sürrealizm, detektiv, naturalizm, fantastika, psixologizm, melodramatizm və s. kimi "izm"lərin qarışıq izlərinə rast gəlmək olur" [1, 26].

Həqiqətən də, Murakami yaradıcılığında istənilən mövzu, sahə ilə bağlı demək olar ki, məlumat tapmaq mümkündür. O, bir çox janrları, mövzuları bir romana sığdıra biləcək qədər güclü, dahi yazıçıdır. Murakaminin kifayət qədər mütaliəli olmasının yüksək səviyyəli nəsr nümunələri yazmasına təsiri az olmamışdır.

Murakaminin son romanlarından sayılan "1Q84" əsəri trilogiya şəklində yazılmışdır. Adından məlum olduğu kimi C.Oruellin "1984" əsərindən təsirlənən yazıçı romanında hadisələrin 1984-cü ildə baş verdiyini göstərir. Lakin həmin zaman kəsiyinə bilinməyən bir zaman və məkan da paralel şəkildə mövcuddur. Həmin yeni dünyaya 1Q84 adı verilir. "1Q84... Bu yeni dünyaya bu adı verdim" deyən Aomame qərarını vermişdi. Q (ingiliscə) sual işarəsinin Q-si idi. Dünyanın suallarla dolu olduğu mənasını verirdi" [7, 153]. Bu o deməkdir ki, , əsərdə hadisələrin təsvirində, zaman və məkan planlarının qurulmasında qeyri-adiliklər qaçınılmazdır.

Romanda hadisələr üç obraz ətrafında cərəyan edir. "1984"-də bizə məlum olan iki dünya bir araya gəlsə də, qovuşulması mümkün olmayan bir eşq sözün əsl mənasında "1Q84" romanında da yaşanır. Lakin Murakami sələfindən fərqli olaraq bu sevgi macərasına dramatiklik qatmır. Uinston və Culiya sevgiləri ilə Böyük Qardaş timsalında onun rejiminə üsyan etdikləri kimi, Tengo və Aomame də sevgiləri ilə Liderin başda olduğu "Little People" kiçik icmasına qarşı çıxırlar. Corc Oruell siyasi əsər yazmaqla bir dövlət, cəmiyyət nəzdində olan problemlərə toxunurdusa, Haruki Murakami bu arealı kiçildir və kiçik bir cəmiyyəti təsvir etməklə fəlsəfi, psixoloji, siyasi məsələləri sürrealist təsvirlərlə verir.

Bir cəmiyyət düşünün, bütün insani keyfiyyətlərdən, hiss və duyğulardan məhrum olunmuş və robot kimi təlimatlara uyğun olaraq hərəkət edən fərdlərdən təşkil olunmuş cəmiyyət. Bu "robot"ların tək vəzifəsi var: Böyük Qardaş timsalında Okeaniyanın dövlət siyasətinə xidmət etmək lazımdır. Oruellin "1984" romanında təsvir etdiyi məhz belə bir cəmiyyət idi. Bu cəmiyyətin nümayəndələrindən biri Uinstondur. Antiutopik cəmiyyətə xas olaraq keçmiş və ənənədən qopmaq meyilləri burada da özünü göstərir. O, Həqiqət Nazirliyinin əməkdaşı olaraq həqiqətləri dəyişməklə, sənədlər üzərində keçmişlə olan əlaqəni qoparmaqla məşğuldur. Evli olsa da, həyat yoldaşından ayrı yaşayır. Çünki partiya boşanmağa icazə vermir. Culiya adlı məsləkdaşı ilə tanışlıqdan sonra onun həyatı dəyişir. Uinston fikir cinayəti törədir, fərqli düşünmək, tək qalmaqla yanaşı partiya qaydalarını çeynəyərək eşq yaşayır, xoşbəxtlik hissinin, həzzin dadına baxır. Əlbəttə, bu da cəzasız qalmır.

Murakami isə bu romanında Oruellin "1984"-də təsvir etdiyi cəmiyyətin artıq dəyişdiyi, Böyük Qardaşın tanınması asanlaşan və fərqli bir cəmiyyətin formalaşması ilə bağlı qeyd edir: "Corc Oruell 1984 adlı əsərində sənin də bildiyin kimi Böyük Qardaş adını verdiyi diktatorluq sistemi mərkəzində hekayəsini danışıb. Əslində, Stalinizmi alleqorik formada təsvir etsə də, sonradan Böyük Qardaş ictimai bir simvol halına gəlmişdir. Bu Oruellin uğuru idi. Lakin indi həqiqətən yaşadığımız 1984-cü ildə Böyük Qardaş artıq çox məşhur və görüldüyündə anında tanınan bilən varlıq halına gəlib. İndi burada Böyük Qardaş deyilən biri ortaya çıxsa, biz barmağımızla onu işarə edib deyərik ki, Diqqət! Böyük qardaş! Bir sözlə, bu həqiqi dünyada artıq Böyük Qardaşa yer yoxdur. Onun yerinə Little People (Kiçik xalq) ortaya çıxıb" [7, 317].

Corc Oruell "1984" romanını 1948-ci ildə yazmışdır. Əsərin ilk adı "Avropada ikinci insan" olmuşdur. Lakin çap zamanı ad dəyişilərək "1984" olmasına qərar verilmişdir. Romanın adı ilə bağlı bir sıra fərziyələr mövcuddur. Vilayət Quliyevin romanın tərcüməsinə yazdığı ön sözdə adı ilə bağlı fərziyələr haqqında qeydlərinə diqqət edək. "Bir fərziyəyə görə, "1984" adı - əsər üzərində işin başa çatdırıldığı 1948-ci illə bağlıdır və sadəcə rəqəmlərin, yəni 8 ilə 4-ün yeri dəyişdirilməsi nəticəsində əldə olunmuşdur. Üstəlik, hadisələrin 1984-cü ildə cərəyan etməsi də həmin tarixin ad kimi seçilməsinə müəyyən məntiqi zəmin yaratmışdır.

Digər versiyaya görə, Oruellin kitab üzərində düşünməyə başladığı tarixin (1944-cü il) üzərinə 40 (Musanın yəhudiləri Misir əsarətindən xilas etdikdən sonra səhrada gəzdiyi müddət) gəlməsi nəticəsində romanın adı yaranmışdır.

Üçüncü versiya romana ad kimi "1984" tarixinin seçilməsinin Böyük Britaniyada sosialist hərəkatının – Fabian cəmiyyətinin 100 illik yubileyi (cəmiyyət 1884-cü ildə təsis edilmişdi) ilə əlaqələndirilir" [3, 14]. Hər üç versiyaya diqqət etdikdə, birinci versiya məntiqi cəhətdən daha real görünür.

Murakaminin niyə romanına məhz "1Q84" adını seçdiyinin cavabını yalnız əsərlə yaxından tanış olduqdan sonra anlamaq mümkünləşir. Romanda gerçək zamanla naməlum zaman paralel şəkildə verilir. Eyni tendensiyaya Oruellin yanaşması da mövcuddur, onun təsvir etdiyi totalitar rejim altında olan cəmiyyətdə tarixin tez-tez dəyişməsi ilə zamanla nəyin gerçək olması anlaşılmaz hala düşür və bütün hadisələr də 1984-cü ildə baş verir. Murakami Oruellin Qərbdə təsvir etdiyi 1984 ilini, Uzaq Şərq timsalında 1Q84 ili olaraq yenidən davam edirÇünki "1Q84" romanında hadisələr 1984 və 1Q84 illərində baş verərək gerçəklik anlayışının qarışdırılmasına səbəb olur. Sələfindən fərqli olaraq, Haruki Murakami gerçək dünyanın ayırd edilməsi ilə bağlı qəhrəmanlarına, eyni zamanda oxucuya ipucu verir. 1Q84 ilinin yaşandığı dünyada səma üzərində 2 ay görünməkdədir. Bu təsvir Murakaminin sürrealist yanaşmasından irəli gəlirdi. Yazıçı hadisələrin baş verdiyi tarixlə Oruellin romanının adını xatırlayaraq bunun sadəcə bir təsadüf olduğunu qeyd edir [7, 521].

Murakami sözü gedən əsərində utopik və antiutopik dünyaya öz münasibətini bildirərək qeyd edir ki, indiki zamanda utopik dünya mövcud ola bilməz. Əvəzində isə Corc Oruellin yaratdığı, beyinlərə müdaxilə edilən, düşünmək üçün vacib olan hər şeyi qoparıb atan bir dünya mövcuddur [7, 169]. Romanın süjeti boyunca Murakami Corc Oruelli xatırlayır, onun fikirlərinə istinad edir. Bu istinadlar bəzən birbaşa, bəzən də bənzətmələrlə ortaya çıxır. Məsələn, "1984" romanında "101-ci otağ"ın funksiyasını mahiyyətcə "1Q84"-də "Peşmanlıq otağı" yerinə yetirir [7, 715]. Lakin burada cəzalar qat-qat yüngül xarakter daşıyır və cəmiyyət qanunlarına qarşı çıxanlara burada günahlarını düşünərək peşman olmaq şansı verilir. Eynilə burada Oruellin romanı, eləcə bütün antiutopik romanlar üçün xarakterik "fikir cinayəti" işlənir. Bütün hadisələr də bu cinayətin cəzasız qalmaması üçün çalışmaqla cərəyan edir. "Fikir cinayəti" bir sıra cinayətlərə də yol açılmasına səbəb olur.

"1984"-ün sonunda Oruell mövcud rejimin qələbəsini, Uinstonun fiziki və mənəvi məğlubiyyətini göstərirdi. Romanın sonunda Uinstonun özüylə mübarizəsi başa çatmışdır. Bu mübarizədə məğlubiyyətin özü də qalibiyyətə bərabərdir. Qalib və məğlubun kimliyini isə Oruell belə izah edir: "İki damla göz yaşı Uinstonun burnunun kənarlarından üzüaşağı yuvarlanırdı. Amma indi yaşıdır. Hər şey qaydasındadır! Mübarizə başa çatıb. O, öz üzərində qələbə çalıb. O, Böyük Qardaşı sevir" [3, 383].

Murakami isə 1Q84 ilində hadisələrin cərəyanetmə istiqamətini dəyişərək, qəhrəmanlarını gerçəklikdən uzaq dünyadan real və həqiqi dünyaya gətirməyi bacarır. Antiutopik dünyanı utopikləşdirməyə səy göstərir.

Corc Oruell modernist dünyanın gətirdiyi problemləri düşünüb, realist şəkildə onları təsvir edirdi. Murakami isə postmodern düşüncə ilə yanaşaraq istər Oruellə, istərsə də antiutopik dünya modelinə yeni nəfəs vermişdir.Nəzərə alsaq ki, Oruell modernist dünyanın gətirdiyi problemləri düşünüb, realist şəkildə onları təsvir edirdi. Murakami isə postmodern düşüncə ilə yanaşaraq istər Oruellə, istərsə də antiutopik dünya modelinə yeni nəfəs vermişdir.

Vilayət Quliyev vurğulayır ki, dünyada totalitarizm təfəkkürü qaldıqca, təbii ki, "1984" də öz aktuallığını itirməyəcəkdir [3, 13]. Bəşər tarixi mövcud olduğu müddətdə ədalətli, utopik cəmiyyət qurmaq meyilləri güclü olaraq qalsa da, alt qatda yatan antiutopik təsirlərlər də hər zaman özünü göstərəcəkdir. Buna görədir ki, nə utopik, nə də antiutopik düşüncə tərzi xalisliyini qorumur. Hər ikisində təsirlənmələr özünü göstərir. Xeyir və şərin mübarizəsi davam etdiyi müddətcə, utopik və antiutopik dünya modeli də qarşılıqlı təsirlənmələrə məruz

qalacaqdır. “1984” bəşər tarixinin, insanlığın gələ biləcəyi ən son nöqtəni bütün çılpaqlığı ilə əks etdirən, gələcəyə işıq tutan və özünəməxsus keyfiyyətləri ilə seçilən bir romandır.

Oruell “1984” romanında SSRİ sosializminin səhv istiqamətdə inkişaf etdiyini göstərməklə yanaşı Stalinin repressiya siyasətini də açıq-aşkar ifşa etmişdir. Buna görə də uzun illər Corc Oruell SSRİ-də qadağan edilmiş yazarlardan olmuşdur.

Bu tipoloji müqayisəyə nəzər yetirdikdə C.Oruell və H.Murakami, eyni zamanda onunla sələf-xələf münasibətində olan yazarların yaradıcılıqlarında antiutopik dünya modeli və ədəbiyyat kontekstində ortaya qoyulan problemlər, əsasən, siyasi, ictimai, sosial xarakter daşımağa xidmət edir. Bu nəsr nümunələrinin aktuallığını itirməməsinin əsas səbəbi burada qlobal, beynəlmiləl və bütün cəmiyyətlər üçün vacib məsələlərə toxunulmasıdır. Şərq və qərb ədəbiyyatında fərqli aspektlərdən yanaşılan antiutopik dünya modeli eyni ideala, insanlığın qurtulmasına xidmət edir.

## Ədəbiyyat siyahısı

1. Əhmədli B. Haruki Murakami-yapon ədəbiyyatının yaşayan klassiki: Asiya xalqları ədəbiyyatı. // Ədəbiyyat qəzeti, 2019, 6 aprel, 26-27 s.
2. Quliyev V. Totalitarizmi vahiməyə salan kitab. //Azərbaycan: jurnal, 2010, №2, 12-16 s.
3. Oruell C. 1984. Bakı, Qanun Nəşriyyatı, 2016, 384 s.
4. Sadıqova M. Utopiya və antiutopiya. (İngilis ədəbiyyatı əsasında) / filol. e. d-ru el. dər. a. üçün təq. ed. dis. : 10.01.03 ; 10.01.08 /N. M. Sadıqova ; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dillər Un-ti. Bakı: 2011, 255 s.
5. Süleymanov M. Ədəbi portretlər. Bakı, Qanun Nəşriyyatı, 2013, 168 s.
6. Bezel N. (1993). Ütopyalarda ve Karşı Ütopyalarda Aklın ve İnsanın Durumu ve Kapsamı. Varlık Dergisi, 1026 (3), 17-25.
7. Murakami H. 1Q84. İstanbul: Doğan Egmont Yayıncılık ve Yapımcılık, 2009, 1256 s.

**Aytekin Alizada**

## The artistic solution of modern and postmodern thought in dystopian prose (based on the novels "1984" by G. Oruwell and "1Q84" by H. Murakami)

Summary:

The works of George Orwell did not go unnoticed for subsequent literature. In addition to Western literature, one can see the effect on Far Eastern literature. We clearly see this effect in the works of Haruki Murakami. We are witnessing the mutual influence of the novel by G. Oruel “1984” with the novel “1Q84” by H. Murakami, who is considered to be living classic of Japanese literature. In the novel by H. Murakami you can see the traces of a number of literary movements. Written in the form of triology. Unlike Orwell, Murakami also uses fantasy in prose in addition to realistic views. Considering that Orwell considered the problems of the world of modernism, he realistically described them. Murakami reacted from the point of view of postmodern thinking and breathed new life both into Orwell’s novel and into the dystopian model of the world.

At the end of the novel "1984" Orwell revealed the triumph of the existing regime, the physical and moral defeat of Winston. Murakami, changing the direction of events in 1Q84, is able to lead his heroes from the world far from reality to the real world. Trying to turn the dystopian world into a utopian world. The article also mentions the attitude of Murakami to the

model of the utopian and anti-utopian world. However, the topic touched by both authors shows differences in social structures.

Key words: Haruki Murakami, George Orwell, dystopia, modernism, postmodernism.

**Айтекин Ализаде**

**Художественное решение модернистской и постмодернистской мысли в антиутопической прозе ( на основе романов Джорджа Оруэлла "1984" и Харуки Мураками "1Г84")**

Резюме:

Творчество Джорджа Оруэлла не осталось незамеченным для последующей литературы. В дополнение к западной литературе, можно увидеть влияние на дальневосточноую литературу. Мы ясно видим этот эффект в творчестве Харуки Мураками. Мы являемся свидетелями взаимного влияния романа Дж. Оруэля «1984» с романом «1Q84» Х. Мураками, который считается живущим классском японской литературы. В романе Х. Мураками можно увидеть следы ряда литературных течений. Написан в виде триологии. В отличие от Оруэлля, Мураками также использует фантазию в прозе в дополнение к реалистическим представлениям. Учитывая, что Оруэлл рассматривал проблемы мира модернистов, он реалистично их описал. Мураками отнёсся с точки зрения постмодернистского мышления и вдохнул новую жизнь как в роман Оруэлля, так и в антиутопическую модель мира.

В конце романа "1984" Оруэлл показал триумф существующего режима, физическое и моральное поражение Уинстона. Мураками, изменив направление событий в 1Q84, способен вывести своих героев из далёкого от реальности мира в настоящий мир. Пытается превратить антиутопический мир в утопический. В статье также упоминается отношение Мураками к модели утопического и антиутопического мира. Тем не менее, тема, которую коснулись оба автора, показывает различия в социальных структурах.

Ключевые слова: Харуки Мураками, Джордж Оруэлл, антиутопия, модернизм, постмодернизм.

Redaksiyaya daxil olma tarixi: 24.05.2019
Çapa qəbul olunma tarixi: 20.06.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Maral Yaqubova tərəfindən çapa tövsiyə olunmuşdur.